Ədəbiyyat qəzeti

3 iyul / 2021

# Oqtay ƏRGÜNƏŞ - 75



Hörmətli Oqtay müəllim!

Sizi - istedadlı yazıçımızı 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz əvvəlcə Pedaqoji İnstitutda və Tibb Texnikumunda təhsil almısınız. 1973-cü ildə isə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini, sonra Moskva Ali Partiya məktəbinin rəhbər kadrlar hazırlayan bölməsini bitirmisiniz. Sumqayıt şəhərində bir sıra tikinti və tibb müəssisələrində işləmiş, 1966-cı ildə "Sosialist Sumqayıtı" şəhər qəzetində jurnalistlik fəaliyyətinə başlamısınız. 1968-ci ildə təcrübəli jurnalist-qəzetçi kimi Füzuli rayonunda yenidən nəşrə başlayan "Araz" qəzetinə işə göndərilmiş, az sonra redaktorun müavini vəzifəsinə irəli çəkilmiş və 1985-ci ilədək həmin vəzifədə işləmisiniz.

1985-ci ildən respublika Mətbuat Komitəsi nəzdində Füzuli rayonlararası birləşmiş mətbəələr birliyinin baş direktoru, 1997-ci ildə isə yeni nəşrə başlayan "Qayıdış" qəzetinin redaktoru olmusunuz. Hazırda Azərbaycan Mətbuat Şurasının üzvü olan "Ərgünəş" FM nəşriyyat-poliqrafiya müəssisəsinin direktoru vəzifəsində işləyirsiniz. "2010-cu ilin nüfuzlu ziyalısı", "Ağrı dağı", "Şərəf", "Milli iftixar" diplomları, Nəsir İmanquliyev adına fəxri diplom, Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüsünüz. "Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - "Müqəddəs amal", "Hourglass" (ABŞ-da "Charleston" nəşriyyatında ingilis dilində çap olunmuşdur), "Qum saatı", "Böyük günah", "Təzadlı dünya" və s. kitablarının, seçilmiş əsərlərinizdən ibarət ikicildliyin müəllifisiniz. "Əbədiyyətə qovuşan Koroğlu" bədii-publisistik əsəriniz respublika üzrə "2009-cu ilin milli-mənəvi dəyərlər mövzusunda kitabı" nominasiyasında qalib gəlib. "Təzadlı dünya" kitabınız isə 2011-ci ilin "Satira və yumor kitabı" adını almış və milli-kulturoloji mükafatlara layiq görülmüşdür.

Hörmətli Oqtay müəllim!

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**